# Azərbaycanın beynəlxalq nüfuzu artır

Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsindən bəhrələnməsi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar, modernləşdirmə, quruculuq işləri idmanın inkişafına da müsbət təsir göstərir. Azərbaycan son illər bütün sahələrdə böyük nailiyyətlərə imza atmış, dünyanın dinamik inkişaf edən dövlətləri sırasına çıxmış, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülmüşdür. Ölkənin və onun əhalisinin təhlükəsiz, əmin-amanlıq şəraitində yaşaması güclü dövlətin ən mühüm şərti kimi birgəyaşayış norma və qaydalarının mövcudluğunu özündə ehtiva edir. Ölkəmiz Avropa və Asiyanın sərhədində — iki nəhəng sivilizasiyanın qovuşuğunda yerləşdiyi üçün onun bu mövqeyi strateji əhəmiyyətini daha da artırır. Bu məkan iki qitənin siyasi, iqtisadi və sosial sahələrin təmas nöqtəsidir. Dövlətimizin reallaşdırdığı strateji kursda bu amillərdən səmərəli istifadə olunur. Azərbaycan Avropanın həmişə diqqət mərkəzində olmuşdur. Qeyd edək ki, avropalılar Azərbaycanın tarixi keçmişinə, mədəniyyətinə, ədəbiyyatına, milli adət-ənənələrinə böyük maraq göstərirlər. Hər il Avropa ölkələrindən respublikamıza gələn turistlərin sayı artır. Avropa ölkələri ilə müxtəlif sahələrdə əməkdaşlığımız genişlənir.

Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi təklifi də xalqımıza, dövlətimizə göstərilən böyük etimad idi. Ötən ayın 12-dən 28-dək Azərbaycan dünyanın diqqətini özünə çəkdi. Birinci Avropa Oyunlarının həyəcanlı, maraqlı anlarını dünya maraqla izlədi.

Xalqımızın milli mədəni dəyərlərinin, qonaqpərvərliyinin dünyaya nümayişi ölkəmiz barəsində yayılan əsassız böhtanlar, şaiyələr, qərəzli fikirlər oyunlar zamanı alt-üst oldu. Oyunlar gözlənildiyindən də yüksək səviyyədə keçirildi. Beynəlxalq tədbirlərin keçirilməsində təcrübəsi olan ölkələri Azərbaycan öz təşkilatçılığı ilə geridə qoydu. Azərbaycana buna görə də minnətdarlıqlarını bildirən dövlət başçıları, ayrı-ayrı təşkilatları, nümayəndə heyətləri, fərdi şəxslər kifayət qədər idi. Birinci Avropa Oyunları Azərbaycanın dünyada nüfuzunu daha da artırdı, onun sülhsevər dövlət, əməkdaşlığa, dostluğa hazır olduğunu sübut etdi. Azərbaycan bu idman tədbirinə çox qısa zamanda hazırlaşmışdı. Yarışlarda iştirak edən bütün nümayəndə heyətləri oyunların keçirildiyi obyektlərin tikilməsi və əvvəlkilərin yenidən qurulması, təhlükəsizlik, nəqliyyat, iştirakçıların yerləşdirilməsi, infarstruktur, jurnalistlər üçün lazımi şəraitin yaradılması və digər məsələlərin çox yüksək səviyyədə öz həllini tapdığını qeyd etmişlər. Birinci Avropa Oyunlarının açılış və bağlanışı öz füsunkarlığı və əsrarəngizliyi ilə dünyaya səs saldı. Yüksək səviyyədə təşkil sübut etdi ki, Azərbaycan belə tədbirləri həyata keçirməyə qadirdir.

Lakin Almaniya Bundestaqının 2015-ci il iyunun 12-də Azərbaycanda insan hüquqlarının vəziyyəti ilə bağlı qəbul etdiyi qətnamə qərəzli, qeyri-obyektiv idi. Bu “sənəd” hər kəsin narazılığına səbəb oldu. Dəfələrlə bəyan edilmişdir ki, heç bir dövlət Azərbaycana təzyiq göstərə bilməz və hansısa bir qarayaxma Azərbaycanı öz demokratik inkişafından, hüquqi dövlət quruculuğu yolundan döndərə bilməz. Azərbaycanda insan hüquq və azadlıqlarına hörmət yüksək səviyyədədir. Bunu ölkəmizə yarışlarda iştirak etməyə gəlmiş idmançılar və turistlər də hər an hiss etmişlər. Ölkəmizdə demokratik təsisatlar qurulmuşdur və onların sərbəst fəaliyyəti təmin edilmişdir. Söz, mətbuat azadlığı qorunur. Mətbuatda bəzi qadağalar bir çox xarici ölkələrdə mövcud olduğu kimi bizim KİV-lərə heç bir qadağa tətbiq olunmur. Bütün qəzet və jurnallar sərbəst fəaliyyət göstərirlər.

Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsi ölkəmizə kimliyindən, hansı vəzifədə çalışmasından, hansı partiyaya mənsub olmasından asılı olmayaraq hamını qürurlandırır, sevindirir. Belə beynəlxalq tədbirlər Azərbaycanı dünyaya tanıdır, sosial təbliğat vasitəsinə çevirir.

Nümayəndə heyətləri Atletlər kəndində 6 mindən çox idmançının yerləşdirilməsindən, nümunəvi təminatdan yarışlara hazırlaşmaq və digər məsələlərin həlli üçün yaradılan şəraitdən çox razı qaldıqlarını bildirmişlər. Birinci Avropa Oyunlarının işıqlandırılması üçün ölkəmizə gəlmiş minə yaxın jurnalistin öz peşə borcunu lazımınca yerinə yetirmələri üçün hər cür şərait yaradılmışdır. Dünyanın nüfuzlu, aparıcı KIV nümayəndələri Oyunlar zamanı xalqımızın tarixi, mədəniyyəti ilə tanış olmaq imkanı da əldə etdilər. Onlar sosial-iqtisadi, mədəni, təhsil, idman, milli-mənəvi dəyərlərimizi də işıqlandıraraq ölkəmiz barədə müəyyən informasiyalar verməyə çalışdılar. Bu informasiyalar özlüyündə bədxahlarımıza dərs vermək idi. Əsl həqiqətlər ortaya qoyuldu. Bu da bizim informasiya sahəsində əldə etdiyimiz nailiyyətdir. Belə ki, həqiqətləri xalqlar öz jurnalistlərinin dilindən eşitdilər.

Ölkəmizdə idmanın inkişafı ilə bağlı böyük işlər görülür. Hazırda respublikamızda 40-dan çox olimpiya idman kompleksi, idman meydançası və qurğular tikilib, idmançılarımızın olimpiya oyunlarında, Avropa və dünya birinciliklərində, digər beynəlxalq yarışlarda qazandıqları uğurlar ölkəmizdə idmana və idmançılara göstərilən qayğının nəticəsidir. Sağlam və vətənpərvər ruhlu yeni nəslin yetişməsi üçün dövlət başçısı İlham Əliyev idmanın inkişafına xüsusi diqqət yetirir. Nəticədə bu gün Azərbaycan dünyada idman dövləti kimi tanınır. Xalqımız idmançılarımızla fəxr edir, onların qələbələrinə sevinir, inanır ki, qarşıdakı yarışlarda zəfərlər daha da artacaqdır. Bayrağımızı dalğalandırmaq, Dövlət Himnimizin səsləndirilməsi hər bir idmançının arzusudur. Onların qələbəyə inamını artıran, hər an onlara dəstək olan möhtərəm Prezidentimizdir. “Bakı - 2015” birinci Avropa Oyunları başa çatıb. Lakin onun doğurduğu geniş əks-səda hələ də səngimir. Bu yüksək səviyyəli təşkilatçılığa görə xalqımız birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevaya minnətdardır. Oyunların yüksək səviyyədə təşkil edilməsində onun əvəzsiz xidmətləri olmuşdur. Bütün qüvvələr bu mötəbər tədbirin yüksək səviyyədə keçirilməsinə səfərbər edilmişdi. Çəkilən zəhmət öz nəticəsini verdi. Azərbaycan xalqı səs verdiyi, inandığı Prezidenti ətrafında sıx birləşərək bu mötəbər mərasimi ən yüksək səviyyədə keçirməyə nail oldu.

**Nadir AĞAYEV,**
**Abşeron Rayon Təhsil Şöbəsinin müdiri, respublikanın əməkdar müəllimi.**